# AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASI SƏDRİNİN ƏMRİ

Bakı şəhəri № 40 19 oktyabr 2012-ci il

Auditorlar Palatasının fəaliyyəti barədə illik hesabatın və məruzənin strukturunun, hazırlanmasının və nəşrinin yaxşılaşdırılması haqqında

"Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Auditorlar Palatasının İş Planının (2012-2015-ci illər)" 2.2-ci bəndinin icrasını, Auditorlar Palatasının qarşısında qanunvericiliklə müəyyən edilmiş vəzifələrin icrasında şəffəflığın təmin edilməsini və Palatanın strukrur bölmələrinin rəhbərlərinin bu sahədə məsuliyyətlərini artırmaq məqsədilə

**ƏMR EDİRƏM:**

1. Auditorlar Palatasında öz fəaliyyəti barədə illik hesabatın və məruzənin strukturunun, hazırlanmasının və nəşrinin yaxşılaşdırılması üçün təkliflər işləyib təqdim etmək məqsədilə aşağıdakı tərkibdə işçi qrupu yaradılsın:

***İşçi qrupunun rəhbəri -***

Qəşəm Bayramov - Auditorlar Palatası Aparatının rəhbəri

***İşçi qrupunun üzvləri -***

Aydın Kərimov - Sədrin müşaviri
Nəcəf Talıbov - Sədrin elmi-metodik məsələlər üzrə müşaviri
Namiq Abbaslı - Sərbəst auditor, Palata Şurasının üzvü
Maarif Abbasov - Auditin tənzimlənməsi və şəffaflığın təminatı idarəsinin rəisi, Palata Şurasının üzvü
Səbuhi Gülməmmədov - Kadr hazırlığı, xarici əlaqələr və nəşriyyat idarəsinin rəisi, Palata Şurasının üzvü
İlqar Vəliyev - "Ernst &Yanq Holdinqs (SiAyEs) Bi.Vi." şirkətinin idarəedici partnyoru, Palata Şurasının üzvü
Mübariz Hacıyev - Auditin təşkili və təhlili idarəsinin rəisi
İslam Bayramov - "HLB Azərbaycan" MMC-nin direktor-auditoru
Vəli Rəhimov - Maliyyə və təsərrüfat idarəsinin rəisi

2. İşçi qrupuna tapşırılsın ki, cari ilin dekabr ayının 1-nə kimi Palatanın fəaliyyəti barədə illik hesabatın və məruzənin strukturu, hazırlıq mərhələləri, ardıcıllığı, təqdim edilməsi, müzakirəsi, nəşri və müddətləri ilə bağlı öz təkliflərini hazırlayıb təqdim etsin.

3. Bu əmrin icrasına nəzarəti özümdə saxlayıram.

**PALATANIN SƏDRİ** **V.NOVRUZOV**